# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 128** **Bakı şəhəri, 4 aprel 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Ordusu və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr üçün vətəndaşların xüsusi hərbi ixtisaslar üzrə hazırlığının təşkil edilməsi və keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 20 oktyabr tarixli 333 nömrəli və "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2010-cu il 24 dekabr tarixli 244 nömrəli və "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar"ın təsdiq edilməsi barədə" 2016-cı il 10 mart tarixli 118 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 29 may tarixli 249 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdiril-məsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1463 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 20 oktyabr tarixli 333 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1246; 2017, № 4, maddə 620; 2018, № 11, maddə 2443, № 12 (II kitab), maddə 2741; 2019, № 12, maddə 2081) ilə təsdiq edilmiş "Azərbaycan Ordusu və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr üçün vətəndaşların xüsusi hərbi ixtisaslar üzrə hazırlığının təşkil edilməsi və keçirilməsi Qaydası"nın 2.6-cı bəndinin birinci cümləsində "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 may tarixli 249 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 982; 2020, № 9, maddə 1239; 2021, № 11, maddə 1283) ilə təsdiq edilmiş "Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

2.2. 6.2-ci bənddə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətində (bundan sonra – Xidmət)" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

2.3. 6.15-ci bənddə, 6.19.7-ci yarımbənddə, 7.2-ci bənddə, 9.1-ci bəndin birinci cümləsində, 9.3.3-cü yarımbənddə, 9.5-ci, 9.6-cı bəndlərdə, 9.7-ci bəndin birinci cümləsində, 9.8-ci bənddə, 9.9-cu bəndin üçüncü cümləsində, 9.15-ci, 10.3-cü bəndlərdə, 10.4-cü bəndin birinci cümləsində, 10.5-ci, 10.6-cı bəndlərdə, 10.8-ci bəndin birinci, 10.10-cu bəndin ikinci, 10.11-ci bəndin birinci cümlələrində, 10.12-ci, 11.1-ci bəndlərdə, 11.2-ci bəndin birinci cümləsində, 11.3-cü, 13.14-cü, 14.1-ci bəndlərdə, 14.2-ci bəndin birinci cümləsində, 14.8-ci, 14.9-cu bəndlərdə ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

2.4. həmin Qaydaya 1-6 nömrəli əlavələrdə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 8 aprel.- S.6.